**24.12.2021: xəbər**

## Khazar University Graduate Appointed to Senior Position

By the order of the President of the Republic of Azerbaijan dated December 23, 2021, Mammad Aslan oglu Abbasbayli was appointed Head of the State Service for Antimonopoly and Consumer Market Control under the Ministry of Economy of the Republic of Azerbaijan.

Mammad Abbasbayli was born in 1975 in the city of Ganja. He holds a bachelor's degree in international relations from Khazar University and a law degree from Baku State University. He received a master's degree in law from Purdue University in 1999 and a law degree from George Washington University in 2000.

He has been a full member of the New York Bar since 2000.

He started his career in 2000 at the law firm Salans Hertzfeld & Heilbronn in New York, USA, and then worked in the company's Baku office until 2003.

Since 2004, he has worked as a lawyer, head of law department and general manager at Azpetrol International Holdings B.V., a number of major foreign industrial and investment corporations, including EUPEC Pipe-Coatings LLC and BP Group. In 2016, he became the President of the Azerbaijan Mountaineering Federation. In 2019, he worked as an adviser to the Minister of Economy.

Last year, he was appointed deputy head of the State Service for Antimonopoly and Consumer Market Control under the Ministry of Economy. At the same time, he was appointed a member of the Supervisory Board of the Entrepreneurship Development Fund and a member of the Board of Appeals.

He is married and has 3 children. The country's websites published news about the appointment.

https://www.azerbaycan24.com/prezidentin-bu-gun-teyin-etdiyi-xidmet-reisi-kimdir/

**Xəzər Universitetinin məzunu yüksək vəzifəyə təyin edilmişdir**

Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2021-ci il tarixli sərəncamı ilə Məmməd Aslan oğlu Abbasbəyli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi təyin edilmişdir. Məmməd Abbasbəyli 1975-ci ildə Gəncə şəhərində anadan olub. Xəzər Universitetinin Beynəlxalq əlaqələr fakültəsində bakalavr dərəcəsi və Bakı Dövlət Universitetinin Hüquq fakültəsində ali təhsil alıb. 1999-ci ildə ABŞ-ın Perdyu Universitetində və 2000-ci ildə ABŞ-nın Corc Vaşinqton Universitetinin hüquq fakültəsinin hüquq üzrə magistri dərəcələri alıb.

2000-ci ildən ABŞ-ın Nyu-York ştatında Vəkillər Kollegiyasının (New York Bar) həqiqi üzvüdür.

Əmək fəaliyyətinə 2000-ci ildə ABŞ-nın Nyu-York şəhərində yerləşən "Salans Hertzfeld & Heilbronn" hüquq şirkətində başlayıb, daha sonra 2003-cü ilədək firmanın Bakı ofisində işini davam etdirib.

2004-cü ildən "Azpetrol International Holdings B.V."də, "EUPEC Pipe-Coatings LLC" və "BP Group kimi bir sıra iri xarici sənaye və investisiya korporasiyalarında hüquqşünas, hüquq bölməsinin rəhbəri və baş menecer vəzifələrində çalışıb. 2016-ci ildə Azərbaycan Alpinizm Federasiyasının prezidenti olub. 2019-cu ildə İqtisadiyyat nazirinin müşaviri vəzifəsində çalışıb.

Ötən il İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini vəzifəsinə təyin edilib. Eyni zamanda, Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının üzvü və Apellyasiya Şurasının üzvü təyin olunub.

Evlidir, 3 övladı var.

Ölkə saytları təyinat haqqında xəbər yayımlamışdır.

https://www.azerbaycan24.com/prezidentin-bu-gun-teyin-etdiyi-xidmet-reisi-kimdir/ və s.